# İman ətirli sətirlər (II)

*“Ancaq Allaha inandığım zaman yaşadığımı anladım...”*

***L.Tolstoy***

## *Xoca Əhməd YASƏVİ:*

Allah, Allah, canım Allah, dilim Allah,
Səndən özgə pənahım yox,
vallah, billah.

***

Allah deyib içə nurun doldurmasan,
Vallah, billah, səndə eşqin nişanı yox.

***

Allah zikri könül mülkün açar, dostlar.

***

Canım, dilim, əqlim, huşum “Allah!” dedi.

***

Ya İlahi, rəhmətindən qətrə damdı,
şeytan qaçdı...

## *Nizami GƏNCƏVİ:*

Ey adı ən gözəl başlanğıc olan,
Adın düşməmişdir dilimdən bir an.
...Ey bütün varlığın həyat təməli,
Varmı səndən özgə mənə bir pənah?!
...Aç mənim üzümə nur xəzinəni,
Zülmətlər içindən xilas et məni.
...Səndən səxavətli dünyada varmı?
...Tanrım! Varlığının gözəlliyindən
Bütün kainata zinət vermisən.

***

Hər nəyin ki büsatı imandan deyil,
astanadan kənar et.

***

Küfr ilə imanı bir ürəkdə saxlamaq
özü kafirlikdir.



## *Cəlaləddin RUMİ:*

Tanrını anlamaqla insan Haqq yolunun yolçusu olur.

***

Adəm oğlu Tanrıdan nurlanarsa, seçilib mələklərin səcdə yeri olar.

***

Adəmin gözü Tanrının pak nuru ilə gördüyündən adların həqiqəti və iç üzü ona əyan oldu.

***

Çirkin xislətli biri Allaha yalvarmasın deyə, Allah ona dərd-kədər verməz. Unutma, Fironun başı bircə kərə belə ağrımadı...

***

Canı təcəlli nuruna dalan birindən ötrü bütün aləm Ulu Tanrının kitabıdır.

***

Allahdan gələnə razı olsaq, Allah da bizdən razı olar.

## *Hacı Bəktaş VƏLİ:*

Həq sübhanəhu və təala Musa peyğəmbərə minacatı Tur dağında verdi, İbrahim peyğəmbərə minacatı məscidlər içində verdi, Yunus peyğəmbərə balıq qarnında verdi, Yusif peyğəmbərə quyu içində verdi və iki cahan fəxri Məhəmməd Mustafaya minacatı göylər içində verdi.

***

Həq-təala Tövhiddə, İncildə və Zəburda hər nə zikr etdisə, məcmusu Qurandır.

***

Həqq əhlini heyvanlar belə sevər.

***

Sığındım sən Tanrıya...

## *Yunus ƏMRƏ:*

Can qanadı açuq gərək uçuban
Dosta getməgə.

***

Cümlə yerdə Həqq hazır,
göz gərəkdür görəsi.

***

Həqq cəhana tolıdur, kimsələr
Həqqi bilməz...

***

Hər bir çiçək bin naz ilə,
ögər Həqqi niyaz ilə...

***

Hər qancaru baqdum isə, həp görinəndür
cümlə Həqq...

***

İstəməgil Həqqi iraq, könüldədür
Həqqə duraq...

***

Sən Həqqə aşiq isən, Həqq sana qapu açar...

***

Sənsin Kərim, sənsin Rəhim,
Allah, sana sundum əlüm,
Səndən artuq yoqdur umum,
Allah, sana sundum əlüm...

## *Marağalı ƏVHƏDİ:*

Varlığı idrakın fövqündə durur,
Zatına irişməz bu aciz şüur...
Kim O-nun zatına əl atsa əgər,
“Yoxdur Haqdan başqa İlahi!” – deyər.
Ağıl dərk eləməz O-nun zatını,
Düşüncə qavramaz bir sıfatını.

***

Xilqətin sirrini dünyada bir kəs
Sən-in gözlərinlə baxmasa, görməz.

***

Elm ilə açarsa ürək gözünü,
Bil ki, Yaradana tutar üzünü.

***

Gözü Haqq nurilə görən bir ürək
Pərdə arxasında nə var, görəcək...

***

Damla Haqdan nüzul eyləsə əgər,
Ürəyin sədəfi qəbul eyləyər.

## İmadəddin NƏSİMİ:

Ey könül, Həqqin adısan, səndə
zühur eylədi Həqq.
***
Həqdən nə gəlsə, xoş gəlir.
***
Hər yana kim baxar isən,
anda sən Allahı gör...
***
Xuda eşqidürür cismimdə canım...
***
Könül Allah evidir...
***
Məgər Həqqi unutmuşsan ki,
oldun dünyayə mail?!
***
Özünü bil ki, Tanrıdan zatına var münasibət.

## Məhəmməd FÜZULİ:

Ey səxavət mənbəyi, ey varlığı icad edən!
...Ey təbibi-qəlb olan, ey həll edən müşkülləri!
...Qibləgahım, olmaram qul
səndən özgə kimsəyə,
Tanrısan, ruzi verənsən, yoxdu Səndən digəri!
...Səndən oldu qəlbimiz hər gizli
sirrin məzhəri!
***
Hər riştə ki Həqq əyan edibdir,
Sərriştəsini nihan edibdir.
...Faş oldu ki, sirri-Həqq nihandır,
Aləmdə nişanı binişandır.
***
Bir kimsə əgər olaydı agah
Kim, xəlqi necə yaratdı Allah.
Mümkün ki, iradətilə ol həm
Xəlq edəydi özgə aləm.
***
Ey Füzuli, intəhasız zövq buldun eşqdən,
Böylədir hər iş ki, Həqq adıyla qılsan iqtida.

## Şeyx İbrahim Gülşəni BƏRDƏİ:

Həqqin qapusuna doğru gələni
Sən əgrisən deyübən sürmək olmaz.
***
Necə sevsün könül münkir olanı?
Həqqün sevmədügin çün sevmək olmaz.
***
Olmayan məhbubi Həqqün bilməz
adəm sirrini.

## Məhməd Akif ƏRSOY:

Birsən, əzəlisən, əbədisən, səmədisən,
Ya Rəbb, sənə yoxsan deməyə
varmıdır imkan?!
***
Nə irfandır verən əxlaqa yüksəklik,
nə vicdandır,
Fəzilət hissi insanlarda Allah qorxusundandır.
Ürəklərdən çəkilmiş fərz edilsin
xövfi Yəzdanın,
Nə irfanın qalır təsiri qətiyyən, nə vicdanın…
...O cəmiyyət ki vicdanında hakim
xövfi Yəzdandır,
Bütün dünyaya sahibdir, bütün
əqvama sultandır.
Fəqət əfradı Allah qorxusundan
bixəbər millət,
Çəkər millətlərin mənfuru qibtilər
qədər zillət...
***
İmandır o cövhər ki, İlahi, nə böyükdür,
İmansız olan paslı ürək sinədə yükdür...
***
Göstər, Allahım, bu millət qurtulur,
tək möcüzə:
Bir “utanmaq hissi” ver qaib xəzinəndən bizə!
***
Nədən əzmin sürəksiz, yoxmudur
Allaha imanın?
***
Dilində Bəsmələ olsun, əlində sureyi-Nur...

## *Nəcib Fazil QISAKÜRƏK:*

Ya Allaha baş əyər, heç kimsəyə əyməzsən,
Ya hər kəsə baş əyər, heç bir
şeyə dəyməzsən.

***

Kaş ki mən Allah kəlməsindən başqa ağzından
tək söz belə çıxmayan
bir dilsiz olaydım!..

***

Allahsız adamın fikrinə, Allahsız cəmiyyətin
məfkurəsinə... inanmıram!

***

Allaha həqiqətdən yola çıxmaq məşəqqət;
Allahdan yola çıxıb varılan şey həqiqət...

## *Cəmil MERİÇ:*

İnanan bədbəxtliyindən bəhs edirsə, yalan
söyləyir. İnanan üçün bədbəxtlik yoxdur.

***

İnanc əsalətlidir. Mədəniyyətlər
onun əsəridir.

***

Tanrı gözəldir, gözəllikdir,
fəzilətdir,.. kamaldır.

***

Tanrı dərkolunmazdır. Ağılın vəzifəsi Tanrının
dərk oluna bilməyəcəyini
dərk eləməkdir.

## *Seyyid Hüseyn NASR:*

...Bilginin ən üstün dərəcəsi Allahı idrakdır.
Allahı dərk etmənin isə imandan başqa yolu
yoxdur, mümkün də deyil.

***

İnsan ancaq Allahın işığında
özünü bilə bilər.

***

İnsan təbiətdəki ahəngi və gözəlliyi öz
zəifliyinin fərqinə vararaq Yaradıcının
Hikməti qarşısında boyun əyməklə
kəşf edə bilər.

***

Allah ilə barışıq olmadığı müddətcə insan
özüylə barışa bilməz və özüylə barışıq
olmadığı müddətcə də təbiətlə
barışıq ola bilməz.

***

Qəlblərimiz Allahı zikr etməklə aydınlanır.
O-nu zikr etdiyimiz zaman O da bizi zikr
edər. İslam Allahı zikretmə elmidir. İslam
Allahı bilmək elmidir. Ən böyük günah Allahı
bilməmək, O-ndan qəflət,
yəni O-nu unutmaqdır.

***

Fikrən səyahət etdiyim bir yerdə kökü əgər
İlahi Həqiqətdə olan fəlsəfəyə tuş gəldimsə,
orada özümü evdəki kimi hiss etdim... İlahi
hər harada varsa, ora mənim
mənəvi yurdumdur.

***

İradəni Allaha təslim edə bilmək həyatın
kədər və müsibətlərini belə şirin bir
qalibiyyətə çevirir.

## *Fərid KAM:*

Vicdani zövqün sağlam ölçüsü olan təmiz təbiətliliyi dinsizlik kökündən yıxar... Dinsizlik xəstəliyi vicdanı elə mənəvi əzab-əziyyətə düçar edər ki, cəhənnəm əzabları onlara nisbətdə cənnət nemətləri kimi qalar.

Din əldən gedərsə, insanlarda fəzilət deyilən heç nə qalmaz. Fəzilət binaları dinsizliyin müdhiş bir zəlzələsiylə kökündən yıxılar. O müdhiş yıxıntıdan qalxan toz-torpaq insanlıq aləminin bəsirət gözünü kor edər, necə ki bəzi yerlərdə edibdir belə... Din gedincə insanda fəzilət deyilən heç nə qalmadığı kimi, fəzilətin məhv olmağıyla da ağıl dayanıqlığını itirmiş olur... İnsan sapqınlığın qaranlığı içərisində qalar, mənəvi dünyasında bircə addım da irəliləyişə nail ola bilməz.

...Dinsiz adam qaranlıq gecədə fırtınaya düşmüş yelkənsiz gəmi kimi ümmanın müdhiş dalğaları arasında çırpına-çırpına qalıb, ən nəhayət, sahilə salamat yetişmədən dəhşətli bir qayaya çırpılıb parça-parça olar. Əgər dinsiz olmaq bəşərin bütün mümkün zövqlərindən istənilən qədər pay almaq məqsədi güdürsə, əmin ol ki, Cənabi Haqq əsla buna meydan verməz... Din getdiyi an insanın gözünə bir qara eynək taxılar. Dünya insanın nəzərində əsl bəla zindanı kəsilər. Bütün varlıqları zil qara görməyə başlar...

Qəlb hər cürə insani məziyyətlərdən uzaqlaşar. Dinsiz adam həmcinslərinə heç bir sevgi, heç bir şəfqət duymaz. Küfr və dinsizlik böhranı vücudunun bütün hücrələrinə yayılar. Quşların cana can qatan nəğmələri belə ona matəm iniltiləri... kimi gələr. Ha yana baxsa, nifrətin, lənətin dərin izlərini görər. Dindar olanın qəlbində elə səadət mayası vardır ki, dünyanın bütün fəlakətləri bir araya gəlsə belə, yenə onu poza bilməz.

## *Oldos HAKSLİ:*

Yaşa dolduqca insanları dinə yönəldən amilin ölüm və ölümdən sonrakı hallar qarşısında duyduğu qorxu olduğunu söyləyirlər. Lakin şəxsi təcrübəm məni bu inanca istiqamətləndirdi: Belə qorxu və düşüncələrdən fərqli olaraq, dini duyğular biz yaşlandıqca inkişafa meyillilik göstərir, çünki ehtiraslarımızın alovu zəiflədikcə, xəyal gücümüz və duyğularımız korşaldıqca ağlımız daha rahat işləməyə başlayır, bir vaxtlar ağlımızı əlimizdən almış arzu və həvəsləri tərk etdikcə Tanrı gizləndiyi buludların arxasından görünür, ruhumuz bütün aydınlıqların qaynağı olan bu varlığı hiss edir və ona yönəlir, bu yönəlmə təbii və qaçılmazdır; duyğu dünyamıza canlılıq və cazibə verən hər şeyi artıq itirməkdə olduğumuz üçün bizi əsla yanıltmayacaq nədənsə yapışma ehtiyacı hiss edərik. Əlbət, qarşısıalınmaz şəkildə Tanrıya üz tutarıq; bu dini duyğu təbiətən elə safdır və bu duyğunu yaşayan ruha elə bir xoşbəxtlik bəxş edir ki, bütün digər itirdiklərimiz yaddan çıxır.

## *Tomas ELİOT:*

Hər şeydə İlahi Zəkanın izləri göründüyü halda, insanların əksəriyyəti öz zəkalarına güvənirlər...

***

İnancsız adamlar, ən nəhayət, müəyyən edəcəklər ki, özləri üçün yaşamaqlarının heç bir faydası yoxdur.

***

Mən müasir ədəbiyyatı din və ona söykənən bir əxlaq şüurundan məhrum olduğu üçün nöqsanlı hesab edirəm. Nəticə etibarilə maddiyyatçı və özünü dünyəvi bir əxlaq fəlsəfəsiylə məhdudlaşdıran müasir ədəbiyyat oxucusunu yaşadığı müddətcə bu dünyanın zənginliklərindən bacardıqca faydalanmağa çağırmaqdadır.

## *Xorxe Anhel LİVRAQA:*

Biz insanıq ... ona görə ki, ruhumuz var, ona görə ki, Allaha inanırıq.

***

Heç kimsə özünü tənha və zavallı bilməsin; varlığında Tanrıdan zərrə daşıyan bir kəs nə yalqız, nə də zavallı ola bilər.

## *Vasili NALİMOV:*

Bilmək gərək ki, Yaradılış Sirrə qərq olmuşdur – o sirri açmaq olmaz, buna cəhd eləməyə lüzum da yoxdu. Yalnızca onu qəbul etmək gərək.

## *Martin HAYDEGGER:*

Bizi qurtarsa, bir Tanrı qurtara bilər.

## *Lüdviq VİTGENŞTEYN:*

Allaha inanmaq – həyatın mənası olduğunu anlamaq deməkdir.

## *Nurəddin TOPÇU:*

İmansızlıq ruhun kainatla bağlarının qoparılmağıdır.

## *Pol DEVİS:*

Elm ancaq elm adamı Tanrının varlığını tamamən qəbul edən bir dünyagörüşü mənimsədiyi zaman irəliləyə bilər.

*Toplayan, tərcümə və tərtib edən:*
**C.MƏMMƏDOV**